# MİLLİ MÜSTƏQİLLİYİMİZ VƏ JURNALİSTİKA (1918-1920-Cİ İLLƏR)

**Q.D.QULİYEVA**
*Bakı Dövlət Universiteti*

1918-1920-ci illərdə fəaliyyət göstərən dövri mətbuatı vərəqlədikcə aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb və çətin şəraitdə yaranırdı.

Çünki 1918-1920-ci illər Azərbaycanda və onun ətrafında gedən proseslər dövri mətbuatda çox geniş öz əksini tapırdı. Azərbaycan jurnalistikası bu proseslərin fəal iştirakçısı idi. Ona görə də ideoloji mübarizənin ağırlığı onun üzərinə düşürdü. Bu dövrdə jurnalist çıxışlarının mövzu-problem dairəsi də olduqca genişdir. Azərbaycanın daxili və xarici həyatı ilə bağlı bütün ictimai-siyasi, sosial-mədəni və mənəvi-əxlaqi problemlər dövrü mətbuatda işıqlandırılırdı. Jurnalist çıxışlarının geniş əhatəli mövzuları içərisində ən başlıcası Azərbaycan xalqının əldə etdiyi milli müstəqilliyi qorumaq, istiqlal düşüncələrini dərinləşdirmək, milli demokratik şüuru möhkəmləndirmək, ona qarşı çıxan qüvvələrə layiqli cavab vermək və s. bu tipli məsələlərdən ibarət idi. Dövlət quruculuğunun mürəkkəb şəraitdə keçməsi ilə bağlı yaranan problemlər AXC dövrü jurnalistikasını məşğul edən mövzular idi. AXC dövrü jurnalistikası ideya-siyasi mövqeyinə görə iki başlıca istiqaməti özündə büruzə verirdi. Cümhuriyyət ideyalarını daşıyan, yayan və təbliğ edən milli demokratik mətbuat, sosial problemləri süni şəkildə şişirdərək xalqı parçalamaq, qarşıdurma yaratmaq, sinfi mübarizə kimi milli birliyi parçalayan ziyanlı ideologiyanı təbliğ edən bolşevik mətbuatı.

Milli demokratik mətbuatda siyasi publisistikaya geniş yer verilirdi. AXC dövrü milli demokratik mətbuatın siyasi problemlərilə bağlı aktiv çıxış edən yazarları içərisində M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli, C.Hacıbəyli, M.Hadi, Ö.F.Nemanzadə, A.Ziyadxanov, M.Məmmədzadə, M.S.Axundov, Ş.Əfəndizadə, B.Seyidzadə, Y.V.Çəmənzəminli, Ə.Müznib, Şeyxülislam Axund Ağazadə və başqaları bolşevik mətbuatında isə bu məsələyə müxalif mövqedən yanaşanlar içərisində M.S.Ordubadi, Ə.Qarayev, S.Pişəvəri, R.Axundov, D.Bünyadzadə, S.M.Əfəndiyev və digərləri idi. Dövrün ən kəskin problemi olan milli məsələdə bolşeviklər və musavat daban-dabana zidd mövqelərdə dayanırdılar. Unitar dövlət tərəfdarı olan və dünya inqilabı ideyası ilə xəstələnmiş bolşeviklər Azərbaycanın milli muxtariyyəti uğrunda mübarizə aparan «Müsavat»a təhlükəli düşmən kimi baxılırdı. AXC jurnalistikasının mövzu arsenalına milli müstəqilliyi qoruyub saxlamaq, milli ordu yaratmaq, ölkədə demokratik parlament seçkiləri keçirmək, bolşevik və Denikin təhlükəsini rədd etmək,

Qarabağda erməni millətçilərinin törətdikləri müharibə yanğısını söndürmək, ölkə daxilindəki təfriqəçiliyi, Bakı nefti uğrunda xarici imperialistlərin apardıqları didişmələri göstərmək və s. daxil idi. Eyni zamanda Cənubi Azərbaycanda olan vəziyyət də dövri mətbuatda intensiv şəkildə işıqlandırılırdı.

Bu zaman M.B.Məmmədzadə milli istiqlalın başlanğıcı məqamını izah edərək yazırdı: «1918-ci il yanvarın 16-da Bakıda Milli Şura toplanmış və yeni bir qanun qəbul etmişdi. Bu qanuna görə ölkənin bəzi qismləri ilə Milli Şurada olmayan milli azlıqlara nümayəndə göndərmək haqqı verilir və beləliklə, 120 deputatdan ibarət bir parlament toplanması təsəvvür edilirdi. 1918-ci il dekabrın 7-də bir parlament toplanmışdır. Parlamenti açarkən söylədiyi açılış nitqində Məmməd Əmin bəy Rəsulzadə Azərbaycan bayrağına xitabən: «bir kərə yüksələn bayraq, bir daha enməz» demişdi».

Azərbaycan milli publisistikasının siyasi strategiyası əsrin əvvəllərində Ə.Hüseynzadə tərəfindən irəli sürülmüş «Türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi mükəmməl bir ideya formulunda və sonralar təkmilləşmiş müsavatçılıq ideologiyasında bir konsepsiyanı həyata keçirən milli publisistika milli və dini dəyərləri qoruyub saxlamaqla çağdaş dünyanın mütərəqqi elm və mədəniyyət nailiyyətlərindən məqsədyönlü şəkildə faydalanmağı təbliğ edirdi». 1918-1920-ci illər Azərbaycan milli dövri mətbuatında istiqlal düşüncəsini möhkəmləndirən siyasi çıxışların ən parlaq nümunəsini M.Ə.Rəsulzadə verib. Onun çıxışları mükəmməl milli ideoloji konsepsiyasından, müsavatçılıqdan gəlirdi. Xalqın milli azadlıq ruhunda tərbiyələnməsində müstəsna xidmətləri olan M.Ə.Rəsulzadə AXC-nin yarandığı ilk günlərdə yazdığı «Azərbaycan paytaxtı» adlı tarixi-publisistik məqaləsində çox maraqlı bir məsələyə toxunurdu. O yazırdı: «Mən mətbuatı çox aradım, lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs mənə cəsarət verdi ki, müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayım. Şübhəsiz ki, bu sətirlərdə veriləcək məlumat Azərbaycan paytaxtının şan və heysiyyəti və hücriyyəti ilə olmayacaq... Düşünürdüm ki, naqis də olsa, bir şey olsun. Biz naqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar vətən eşqi, məmləkət məhəbbəti ilə səy edər, bu başlanğıcı təkmil edərlər...» M.Ə.Rəsulzadənin ardıcıl mətbu çıxışları Azərbaycan xalqının tarixi keçmişini, yaşadığı ərazinin coğrafi hüdudlarını təsvir edir, vətən və millət sevgisi təbliğ edərək, demokratik dəyərlər aşılayırdı. Onun siyasi məqalələri ideya dolğunluğu və məzmun zənginliyi ilə barəbar ciddi şəkildə ümumiləşdirilmiş həyati faktlara əsaslanırdı. 1918-ci ilin sonunda Azərbaycan Milli Şurasının açılması münasibəti ilə yazdığı «Hanki ümidlə» başlıqlı məqaləsində milli demokratik dövlətin prespektivinə kütlə içərisində ümid hissləri aşılayırdı. «Samoupravlenie» məqaləsində isə saxta sinfi mübarizə ideyası altında xalqı parçalamağa çalışan müxtəlif siyasi partiyaların pozuculuq fəaliyyətinə kəskin münasibət bildirir. «Məclisi-Müəssisatda Azərbaycan bolşeviklərinin xəyanət və Rusiya bolşevik hökumətinin milli demokratik dövlət üçün nə dərəcədə təhlükəli olması «Azərbaycan» qəzetində bu şəkildə təqdim olunur: «Əfəndilər! Məsələ qətiyyən pək mühümdür. Zənn etməyiniz ki, mənim könlümə Rusiya bolşeviklərinə qarşı o qədər böyük inad vardır ki, suiniyyətə alışaraq onlarla anlaşmaq istəməm. Xeyir, həmişə mühakimə etmək mümkündür. Bir taqım şəxsə quldur deyərlər».

«Təəssürat» başlıqlı yazıda «Rus-slavyan» cəmiyyətinin «Vahid Rusiya və Azad Azərbaycan» şurasına münasibət bildirilir: «Hər halda biz, vahid Rusiya qurmaq işlərinə heç bir vəchlə xələl yetirib, mane olmarıq, bu şərtlə ki, bu işdə bizim istiqlalımıza zərər dəyməsin» və yaxud «Kim nəyin fikrində imiş» məqaləsində də istiqlalımıza qarşı çıxan qüvvələr tənqid edilir. Məqalə müəllifi milli azadlıq və milli dövlətçiliyə qarşı çıxan mətbuat orqanlarını tənqid edərək yazır: «Yedinaya Rusiya»dan başqa həqiqi əsərlərin məşhur «Znamya truda»sı, fəhlə «tərəfdarlarının «İskra»sı, erməni milli komitəsinin «Naşa vremya»sı «qəhrəman» daşnakların «Vperyod» adında küçə vərəqəsi, hətta müsəlman puluyla çıxan «Kaspi» qəzetəsi dəxi bu mətləb xüsusunda ağız-ağıza verib biri şikayət edir, biri söyür, biri ağlayır, biri ah-nalə çəkir, biri qarğış edir...». «Bir iltimas münasibətilə» başlıqlı məqalədə Rusiya-Azərbaycan münasibətlərində Azərbaycanın istiqlalı məsələsi qoyulur: «Rus milli komitəsi Azərbaycan xarici vüzəratına müraciət edib ölkəmizdən qaçmış və Şimali Qafqaz hüdudunda qalmış olan əlli min nəfər rus kəndlilərinin təkrar torpağımıza qayıtmağı və qaytarılmağı iltimasda bulunur. Komitə deyir ki, «Azərbaycan hökumətini rus kəndlərinə qarşı hüsnü bildiyimizə görə təvəqqe edirik ki, haman kəndlilərə Azərbaycan torpağında yer verilsin; onlardan əlavə Qafqazın sair yerlərindən gələn ruslara dəxi Azərbaycanda məskən salmaq imkanı rəva görülsün». Təəccüb işdir. Rus milli komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir. Naşiri-əfkar olan «Yedinaya Rusiya» qəzetinin hər nömrəsində hökumətimizi ilan kimi çalır, azadlığımızın düşmənləri cərgəsində durub, Azərbaycan istiqlalına qarşı bədqulluq edir, rəisülvüzəramız tərəfindən təklif olunan vəzirlik yerinə qeyri-qabil qəbul bilib, «atkaz» edir, bir tərəfdən də bu tanımadığı və qəbul etmədiyi hökumətə müraciət edib, əlaqə bağlayır və dürlü-dürlü iltimaslarda bulunur».

Rusiyanın Azərbaycana münasibətdə qeyri-səmimi siyasət yeritdiyini jurnalist bütün çılpaqlığı ilə açıqlayaraq yazır: «Aşkar deyilmir ki, rus milli komitəsinin amal və arzusu Azərbaycanda yaşayan rusların mənafeyini gözləmək olmayıb, bəlkə politikaçılıqdır ki, o politika sayəsində bizləri təkrar Rusiyaya bitişdirib istiqlalımızın məhvinə səbəb ola və əlli min nəfər rusu Şimali Qafqaz hüdudundan qaytarıb, torpağımızda yerləşdirməkdə məqsəd yenə də politika yeritməkdir ki, onun təfsiri uzundur, amma zənn edirəm ki, bunu anlamaq üçün təfsirə möhtac olmaq dərəcə kamağıl deyilik».

«Başlanır» məqaləsində Azərbaycanın ərazi bütövlüyü məsələsi qoyulur, erməni daşnaklarının Azərbaycan əleyhinə fəaliyyəti pislənir. Xüsusilə, «Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərindən ibarət olan Qarabağı xarici imperialist qüvvələrin dəstəyi ilə işğal etməyə çalışan Ararat hökuməti, o cümlədən daşnakların «Vperyod» qəzeti kəskin tənqid olunur: «...Daşnaklar qəzetləri vasitəsilə Qarabağ ermənilərini Azərbaycana qarşı müsəlləh üsyana təşviş və təhrik edirlər. Və deyirlər ki, qorxmayın siz, üsyana başladıqdan sonra erməni hökuməti bəhanə tapıb sizə köməyə gələr». Müəllif məsələyə bir qədər də aydınlıq gətirərək yazır: «Bəli, bunu biz də bilirik və burasını da yaxşıca bilirik ki, madam ki, erməni milləti içində daşnak partiyası mövcuddur, nəinki Qarabağda, bəlkə Ümumqafqazda müsəlləh ixtişaş davam edəcəkdir. Millətin gözlərini, daşnakların siyasətini görməmək dərəcədə örtmüş

olan bu partiya, erməni millətini tamam və kamal məhv və kobud etdirməyincə şeytan əlindən əl çəkməyəcəkdir».

Azərbaycan torpaqlarının ən əski zamanlardan Azərbaycan türklərinə mənsub olduğunu, ermənilərin bu yerlərdə gəlmə olduğunu özünəməxsus jurnalist peşəkarlığı ilə qeyd edir: «Bizim öz yerlərimizə sahib olmaq əməlimizi daşnaklar «imperializm məqsədi» deyə adlandırırlar. Çünki Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın yerləri ermənilərin yeri itmiş! Və o qədər mübahisəli imiş ki, onun həllini Paris konfransından gözləmək lazım gəlirmiş!».

Ü.Hacıbəyov «Təəssürat» və «Hesabat» rubrikalı çıxışlarında respublika parlamentindəki hadisələri şərh edir, təhlillər verirdi. Onun siyasi çıxışları içərisində milli birliyə, milli həmrəyliyə çağırış, daxili siyasi pərakəndəliyin tənqidi, erməni-daşnak qüvvələrinin terror aktları, Qarabağ, Naxçıvan və Qərbi Azərbaycanda törətdikləri vəhşiliklər pislənir. Milli istiqlalın müdafiəsi ilə bağlı «Qara təhlükə» adlı yazısında müstəmləkə rejiminin bərpası uğrunda Rusiyanın içində və ətrafında müharibə təhlükəsi kimi mövcud olan şovinizm rus generalı Denikin və onun əlində olan hərbi birləşmə haqqında geniş informasiya verilirdi. Eyni zamanda daxili denikinlərin mövcudluğunu da diqqətə çatdıraraq yazırdı: «Bir Denikin var ki, bizi xaricdə təhəddüd ediyor. Bir çox denikinlər var ki, içimizə dolub, ən xətərli yerlərdə gizlənib bizi qorxudurlar».

Azərbaycanın milli müstəqilliyinə qarşı çıxan, müxalif partiyalara ünvanlanan çıxışında yazırdı: «Gözlər var ki, dünənə qədər əsir və qul olan bir milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər». Azərbaycanda milli azadlıq düşüncəsinin formalaşmasında Y.V.Çəmənzəminlinin siyasi çıxışları böyük əhəmiyyət kəsb edirdi. AXC-nin yaradılması ərəfəsində Müsavat partiyasının «Açıq söz» qəzetində verdiyi «Türk millətinə xitab» adlı silsilə məqaləsində milli istiqlalı qorumaq uğrunda bütün siyasi qüvvələri birliyə çağırırdı.

Azərbaycan jurnalistikası amansız çar üsulu idarəsindən, totalitar rejimindən, müstəmləkə şəraitindən keçib gəlmişdi. Şərəfli mübarizə yolunda ağır məhrumiyyətlər görmüş, siyasi reallığın ağrılarını və sosial sıxıntıların əzablarını yaşamışdı. Amma bu mübarizədə Azərbaycan jurnalistikası mətinləşmiş, qeyri-optimal şəraitdə fəaliyyət göstərə bilmək təcrübəsi qazanmışdı. Bu təcrübə siyasi müstəqilliyini bəyan etmiş Azərbaycan dövlətini, müəyyən mənada qorumaq və yaşatmaq məsuliyyətini onun üzərinə qoyurdu. Ölkədə siyasi və iqtisadi vəziyyət ağır idi. Gənc Azərbaycan dövləti bir tərəfdən beynəlxalq dəstək qazanmaq, dünya dövlətləri tərəfindən tanınmaq, ölkənin siyasi müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü qorumaq, digər tərəfdən isə ölkədə iqtisadi-mədəni inkişaf proqramını həyata keçirmək üçün gərgin şəkildə fəaliyyət göstərirdi. Çünki imperiya bu dövlətə heç bir siyasi və iqtisadi irs saxlamamışdı. Müstəmləkədən miras qalan yalnız sosial-iqtisadi və mədəni problemlər idi. Cümhuriyyət dövrünün jurnalistikası belə bir şəraitdə fəaliyyət göstərirdi.

Təbii кi, Xalq Cümhuriyyəti dövrü jurnalistiкası tarixi şəraitin mürəккəbliyindən asılı olaraq çoxşaxəli və çoxfunкsiyalı fəaliyyət dairəsinə maliк idi.

Xalq Cümhuriyyəti dövrü jurnalistiкası milli dövlət quruculuğu prosesində aparıcı mövqedə dayanırdı. Sözügedən dövrün jurnalistiкasının tam əhatəli öyrənilməsi, detallarına qədər təhlil olması üçün birinci növbədə həm ayrı-ayrı jurnalistlərin (M.Ə.Rəsulzadə M.B.Məmmədzadə, Ü.Hacıbəyli, C.Hacıbəyli, Ş.Rüstəmbəyli, M.H.Zeynallı, A.Yusifzadə, H.İ.Qasımov, Q.Şərifzadə, Ö.F.Nemanzadə, Ə.Müznib, H.Z.Eyvazov, Ə.H.Bağırov, C.Nəzmi, X.Əzizbəyli, S.Nuri, Ə.Həmdi, Q.Qaraqaşlı, Q.Qarabəyov, M.Ə.Sidqi, R.Z.Lətifbəyov, S.H.Sadiq, B.N.Kiçiкxanov, İ.Əbilov və b.), həm də ayrı-ayrı mətbuat orqanlarının fəaliyyətinin («Azərbaycan», «Bəsirət», «Doğru yol», «El», «Əfкari-mütəllimin», «İstiqlal», «İttihad», «Gənclər yurdu», «Məкtəb», «Millət», «Müdafieyi-millət», «Müsəlmanlıq», «Səhab», «Türк sözü», «Övraqi-nəfisə», «Açıq söz» və b.) müstəqil şəкildə tədqiq olunması vacibdir.

## ƏDƏBİYYAT


1. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Baкı. 1990-cı il.
2. Vəliyev Ş. Füyuzat ədəbi məкtəbi. Baкı, 1999-cu il.
3. Əliyeva A. «Azərbaycan» qəzetində ədəbiyyat məsələləri (1918-1920-ci illər) Namizədliк dissertasiyası. Baкı, 1992-ci il.


## НАША НАЦИОНАЛЬНАЯ НЕЗАВИСИМОСТЬ И ЖУРНАЛИСТИКА (1918-1920 гг.)


Г.Д.ГУЛИЕВА


## РЕЗЮМЕ


Перелистывая периодическую печать, которая действовала в 1918 – 1920-х годах, становится ясно, что Азербайджанская Народная Республика создавалась в очень сложной и трудной обстановке.

Журналистика периода АДР по идейно-политическому положению отражала в себе два основных направления: 1 - национально-демократическая печать, которая несла, распространяла и пропагандировала демократические идеи; 2 - большевистская печать, которая искусственно раздувала социальные проблемы, пропагандировала вредную идеологию, хотела разъединить народ и создать противостояние.

Естественно, журналистика периода АДР в связи со сложной исторической обстановкой имела несколько функций и многогранную деятельность.

Журналистика периода АДР в процессе создания национального государства играла ведущую роль. Чтобы всесторонне изучать, анализировать журналистику того периода, о которой идёт речь, в первую очередь обязательно нужно исследовать и деятельность каждого журналиста в отдельности, и деятельность разных печатных органов.

***NATİONAL İNDEPENDENT AND JOURNALİSM (1918-1920)***

***G.D.QULİYEVA***

***SUMMARY***

While listing the periodical press activity during 1918-1920 years becomes clear that. The Azerbaijan People's Republic created in a very complicated and difficult situation.

Azerbaijan People's Republic periodical journalize showed two main principles for its idea-political position. The national democratic press carrying, spreading and propagating the people's ideas was the Bolshevik press which overstayed the Social problems artificially breaking people, created counteraction and broke the national unity as the class struggle.

Naturally, that the People's Republic periodical journalism had the multifunctional activity circle depending on complicated of its historical situation. The People's Republic periodical journalism Stood in a Leading position during the national state construction process.

For totally learning of that periodical journalism analyzing it in detail is important to search independently the activity of separately journalists and press organizations at first.